# DOĞMA FAKÜLTƏMİZİN HƏMYAŞIDI GÖRKƏMLİ ALİM, İDEAL MÜƏLLİM, GÖZƏL İNSAN, NURLU ŞƏXSİYYƏTİ ANARKƏN

*Geologiya-mineralogiya elmləri doktoru, professor Vaqif Gülmurad oğlu Ramazanovun 80 illik yubileyinə*

**VƏLİYEV Z.A., MANSUROV M.N., ABDULLAYEVA Ş.F., ƏLİZADƏ N.O.**



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin qərarı ilə 1 sentyabr 1919-cu ildə təsis edilmiş Bakı Dövlət Universiteti Şərqdə ilk ali məktəb olmaqla elm, təhsil və mədəniyyət ocağı kimi bu günədək öz bayrağını uca tutmaqdadır.*

*Klassik milli universitet missiyasını hər zaman yerinə yetirən bu elm məbədində yarandığı vaxtdan müasir dövrədək çoxsaylı alimlər işləmiş, elm və təhsil sahəsində vətənə, xalqa öz sonsuz sədaqətlərini parlaq əməlləri ilə isbat etmişlər.*

*Universitetin fəaliyyətdə olduğu 100 ildən artıq bir dövr ərzində müxtəlif ixtisaslar üzrə 150 000-dən çox mütəxəssis hazırlanmışdır. Belə mütəxəssislərin hazırlanmasında universitet alimlərinin rolu əvəzsizdir. Məhz bu alimlər həm respublikada, həm respublikadan kənarda universitetin imicini formalaşdırmışlar.*

*Son illərdə BDU-da gənc nəslin savadlı və yüksəkixtisaslı kadr kimi hazırlanmasında 1500-dən çox professor-müəllim heyəti çalışır. Bunların içərisində 21 nəfər AMEA-nın həqiqi və müxbir üzvü, 300-dən çoxu professor, 800-ə yaxın fəlsəfə doktoru, dosentlər fəaliyyət göstərir.*

1943-cü ildə yaradılmış Geologiya fakültəsi 70 ildən artıq vaxt ərzində yüksək professionallıqla minlərlə gəncin geoloq ixtisasına yiyələnməsində uzun və şərəfli bir yol keçmişdir.

Qeyd etmək lazımdır ki, BDU-ya müxtəlif illərdə rəhbərlik etmiş rektorlar içərisində geoloq-rektorlar da olmuşdur. Bunlar akademiklər Ş.F.Mehdiyev və F.M.Bağırzadədir.

Bu illər ərzində fakültədə akademiklər Mirəli Qaşqay, Musa Əliyev, Şəfayət Mehdiyev, Əzəl Sultanov, Faiq Bağırzadə, Ədhəm Şıxəlibəyli, Akif Əlizadə, Vasif Babazadə, Arif İsmayilzadə, Fəxrəddin Qədirov, müxbir üzvlər Qədir Sultanov, Heydər Əfəndiyev, Xudu Məmmədov, Elmira Əliyeva, Kərim Kərimov, professorlar Əziz Əsgərov, Səttar Süleymanov, Manaf Zahiri, Həbib İsrafilov, Tofiq Şahsuvarov, Sərdar Səmədov, Sübhi Bektaşi, Vasif Əliyev, Fuad Axundov, Ədhəm Mahmudov, Cəbrayıl Azadəliyev, Məmməd Çıraqov, Hikmət Mahmudov, Sokrat İsayev, Musa Məmmədov, Bahadur Qələndərov, Ayvaz Xalaflı, Nazim İmamverdiyev, Şəhla Abdullayeva, Zəki Vəliyev və başqaları elm estafetinin şərəfli daşıyıcıları olmuşlar.

Bu şərəfli kollektivin layiqli davamçısı olan professor Vaqif Ramazanovun da alimlər arasında özünəməxsus rolu və çəkisi vardır.

Görkəmli metallogenist alim - geologiya-mineralogiya elmləri doktoru professor Vaqif Gülmurad oğlu Ramazanov ömrünü elmə, doğma Azərbaycanın təbii

sərvətlərinin tədqiqinə və gənclərin təhsilinə həsr etmiş, geologiya elminin inkişafına böyük töhfələr vermiş fədakar alim və gözəl insan idi. O, Azərbaycanın, Böyük Qafqazın keçilməz qarlı zirvələrini, sıldırım yamac və dərələrini, çay şəbəkələrini və Alp çəmənliklərini qarış-qarış gəzmiş, bütün filiz obyektlərini incəliklərinə qədər dərindən öyrənmişdir.



Vaqif Ramazanov Azərbaycan xalqının bugünkü genefondunu zənginləşdirə biləcək nurlu şəxsiyyətlərdən biri, nəinki ölkəmizin, hətta ondan çox-çox uzaqlardakı elmi-pedaqoji ictimaiyyətin hüsn-rəğbətini, hörmət və ehtiramını qazanmış görkəmli alim, tanınmış pedaqoq, Bakı Dövlət Universitetinin Faydalı qazıntıların geologiyası kafedrasının professoru, geologiya-mineralogiya elmləri doktoru idi.

O, 1944-cü ilin qarlı-boranlı günlərində Siyəzən-Xızı bölgəsinin böyük hörmət və dərin ehtiramını qazanmış kənd ağsaqqalı kolxoz sədri Gülmurad dayının və qayğıkeş ana Cavahir xalanın çoxuşaqlı ailəsində dekabr ayının 6-da dünyaya göz açıb. Onu bu ucalığa aparan yol ağır, böyük imtahanlar, sınaqlar, məhrumiyyətlər, yuxusuz gecələr, axtarışlar, araşdırmalar kəşflər zəncirindən ibarət ləyaqətli ömür karvanıdır ki, bu da nadir insanlara nəsib olur.

Vaqif əla oxumaqla yanaşı, 1958-ci ildən 1962-ci ilə kimi əmək fəaliyyəti ilə də məşğul olmuşdur.

O, sovet ordusunda bilikli, intizamlı gənclərə ehtiyac olduğundan, hava hücumundan müdafiə qoşunları batalyonunda qulluğa çağırılır.Üç illik əsgərlik dövründə xüsusi xidmətlərinə görə dəfələrlə medallarla təltif olunur. Əsgəri borcunu yerinə yetirdikdən sonra, BDU-da təhsilini davam etdirərək yoldaşlarından üç il geri qalmasına baxmayaraq, 1970-ci ildə diplom işini müdafiə edib mü-



həndis-geoloq ixtisasına yiyələnir və təyinatla Azərbaycan SSR Nazirlər Sovetinin Geologiya idarəsinə göndərilir. Burada əmək fəaliyyətini texnik-geoloq vəzifəsində başlayan gənc mütəxəssis işgüzarlığı, biliyi, dözümlülüyü, insanlarla xoş rəftarına görə qısa zaman ərzində dəstə rəisi, baş geoloq kimi məsul vəzifələrə irəli çəkilir.

Bu illərdə artıq əsl geoloq kimi formalaşmış Vaqif Ramazanovda istehsalatda böyük nailiyyətlərlə yanaşı, mərdlik, vətənpərvərlik, dəyanətlilik, ekstremal vəziyyətlərdə özünü idarəetmə qabiliyyəti, sədaqət, dostluq kimi ən ali insani keyfiyyətlər özünü bariz surətdə büruzə verir.

Geologiya idarəsində böyük uğurlarına baxmayaraq, geoloq Vaqifin elmə olan sonsuz marağı onu istehsalatdan ayırıb 1978-ci ildə Emlər Akademiyasının Geofizika Elmi Mərkəzində çalışmaqla öz arzusunu reallaşdırmağa sövq edib. O, burada qısa zaman ərzində böyük zəhmətlərə, əzab-əziyyətlərə, yuxusuz gecələrə, ekstremal şəraitlərə qatlaşıb, mənalı ömrünün on ildən çoxunu həsr

etdiyi “Kəlbəcər törəmə muldasının filizləşməsinin yerləşmə qanunauyğunluqları” mövzusundakı namizədlik dissertasiyasını yüksək səviyyədə müdafiə edib.

Geologiya-mineralogiya elmləri doktoru, professor Vaqif Ramazanov Azərbaycan elmini dəfələrlə dünyanın ən nüfuzlu elmi forumlarında (Almaniya, Türkiyə, İran, Pakistan, Moskva, Sankt-Peterburq, Səmərqənd, Tbilisi, Kiyev və s.) ləyaqətlə təmsil etmiş və alimlərin dərin hörmətini qazanmışdır.

Vaqif müəllimin fərdi keyfiyyətlərinə gəldikdə isə,



o, nəhayətsiz dərəcədə təvazökar, xeyirxah, alicənab, nəcib və nurlu şəxsiyyət idi. Onun həyatda ən ali missiyası ətrafındakılara təmənnasız yaxşılıq etmək, kimsəsizlərə əl tutmaq, dost-yoldaş naminə heç nəyi əsirgəməmək idi.

Magistrantlara, aspirantlara böyük qayğı ilə yanaşırdı. Elə bir xeyir-şər məclisi olmazdı ki, orada Vaqif müəllim iştirak etməsin. O, böyük bir el-obaya ağsaqqallıq edirdi. Bir çoxlarından fərqli olaraq o, başqasının dərdini, qayğısını özəlləşdirir, öz çiyinlərinə ağır yük kimi götürürdü.

Vaqif müəllim ən ali insani xüsusiyyətlərə malik məğrur bir şəxsiyyət idi. O özünə və başqalarına qarşı son dərəcə tələbkar, prinsipial, işgüzar, mənəvi və etik meyarları hər şeydən uca tutan insan idi.

Hələ yeniyetmə çağlarında orta məktəbdə nümunəvi füsunkar diyarda yaşadığındanmı, yoxsa təbiətə sonsuz vurğunluğundanmı bütün boş vaxtlarında ətraf aləmin seyrinə dalar, rəngarəng daşlar, möhtəşəm dağlar onu riqqətə gətirər və gənc, formalaşan əqlini daim məşğul edərdi. Məhz bu istək, təbiətə vurğunluq və onun sirlərinin aşkarlanmasına böyük ehtiras onu 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin Geoloji-coğrafiya fakültəsinə daxil olmağa sövq edir.

Müasir geoloqların formalaşmasında öz töhfəsini vermək məqsədilə 1981-ci ildə ölkəmizin ən nüfuzlu ali məktəbində-Azərbaycan Dövlət Universitetində (indiki BDU) fəaliyyətə başlayıb, kiçik zaman kəsiyində professor-müəllim heyətinin, xüsusən tələbələrin hüsn-rəğbətini qazanmışdır. Beləliklə, Vaqif müəllim 1981-ci ildən etibarən öz taleyini bu ali bilik ocağı ilə bağlayıb. Elm və təhsili harmonik inkişafda görən Vaqif müəllim 1993-cü ilin martında öz fundamental əsərini – "Azərbaycanın mis-porfir formasiyaları" adlı doktorluq dissertasiyasını Gürcüstanın paytaxtı Tbilisidə müdafiə etmişdir. Bu elmi əsərə rəy vermiş ölkəmizin, eləcə də keçmiş SSRİ məkanının ən məşhur alimlərinin etirafina görə o, filizəmələgəlmə nəzəriyyəsi, ümumiyyətlə, metallogeniya sahəsində yeni səhifə açmışdır.

Vaqif Ramazanov mehriban ata və baba, sədaqətli dost, mənən zəngin, təmiz və nəcib bir insan idi. Məhz bu saf keyfiyyətlərinə görə Vaqif müəllim BDU-nun professor-müəllim heyətinin və tələbələrin, AMEA Geologiya İnstitutunun, respublika elmi-istehsalat ictimaiyyətinin, böyük əməksevər geoloqlar ordusunun, məsləkdaşlarının, dostlarının və qohum-əqrəbanın hüsn-rəğbətini, məhəbbətini, böyük ehtiramını qazanmışdı.

Bütün bu ali keyfiyyətləri sayəsində unudulmaz dostumuz, gözəl insan, peşəkar müəllim və alim öz möhtəşəm heykəlini onu sevənlərin qəlbində əbədi ucaltmışdır.

